# ƏLYAZMALAR FONDUNUN İNSTİTUTA ÇEVRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

***Rüxsarə İskəndər qızı Məmmədova***

*AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu,*
*Multidissiplinar əlyazmaların tədqiqi şöbəsi*
*böyük elmi işçi*
*Səbail rayonu, İstiqlaliyyət küç.26*
*mrukhsara@mail.ru*

***Açar sözlər:*** *kitab, əlyazma, mədəniyyət, milli sərvət*
***Ключевые слова:*** *книга, рукопись, культура, национальное богатство*
***Keywords:*** *book, the manuscript, culture, national wealth*

**Xülasə:** Heydər Əliyev, Azərbaycan tarixində müstəsna rol oynayan şəxsiyyətlərdən biridir. Onun siyasi və iqtisadi sahələrdəki xidmətləri ilə yanaşı, mədəniyyətə, xüsusən də kitab mədəniyyətinə göstərdiyi diqqət və qayğı da xüsusi qeyd edilməlidir. Kitab, hər bir cəmiyyətin bilik mənbəyi, mədəni irsin daşıyıcısı və gələcəyə ötürülən ən dəyərli xəzinəsidir. Heydər Əliyev bu həqiqəti dərindən dərk edərək, Azərbaycanda kitab mədəniyyətinin inkişafına böyük önəm vermişdir. O cümlədən bizim tariximizi özündə əks etdirən əlyazma kitabları və Əlyazmalar İnstitutu haqqında söylədikləri bunun bariz nümunəsidir: "Əlyazmalar İnstitutu, oradakı fond, sənədlər tarixi əsərlərimiz, milli sərvətimizdir. Biz onları göz bəbəyi kimi qorumalıyıq və şübhəsiz ki, bu sərvəti yığıb anbarda saxlamaq olmaz, biz ondan istifadə etməliyik. Amma elə istifadə etməliyik ki, onlar bir neçə yüz il, min il bundan sonra da yaşasın və Azərbaycanın tarixini gələcək nəsillərə göstərsin". [1, c.7., s.173-178]

Heydər Əliyev bu fondun və sənədlərin qorunmasını dəfələrlə öz çıxışlarında vurğulamış və onları yalnız qorumağı deyil, elmi dövriyyəyə cəlb etməyin önəmini qeyd etmişdir.

**Резюме:** Гейдар Алиев — одна из выдающихся личностей в истории Азербайджана. Наряду с его заслугами в политической и экономической сферах, особого внимания заслуживает его отношение к культуре, в частности — к книжной культуре. Книга — это источник знаний для каждого общества, носитель культурного наследия и бесценное сокровище, передающееся будущим поколениям. Гейдар Алиев глубоко осознавал эту истину и придавал большое значение развитию книжной культуры в Азербайджане.

Ярким подтверждением этого служат его слова об Институте рукописей и о рукописных книгах, отражающих нашу историю: «Институт рукописей, находящиеся там фонды и документы — это наши исторические произведения, наше национальное достояние. Мы должны беречь их как зеницу ока. Безусловно, такие сокровища нельзя просто хранить в архивах, их необходимо использовать. Но использовать так, чтобы они сохранились на сотни, тысячи лет и продолжали рассказывать будущим поколениям об истории Азербайджана».

Гейдар Алиев неоднократно подчеркивал в своих выступлениях охрану этого фонда и документов и подчеркивал важность не только их сохранения, но и вовлечения в научный оборот.

**Summary:** Heydar Aliyev is one of the most prominent figures in the history of Azerbaijan. Alongside his achievements in political and economic spheres, his attention and care for culture, particularly book culture, deserve special recognition. Books serve as a source of knowledge for every society, carriers of cultural heritage, and invaluable treasures passed down to future generations. Heydar Aliyev deeply understood this truth and placed great importance on the development of book culture in Azerbaijan.

A clear example of this is his statement regarding the Institute of Manuscripts and the handwritten books that reflect our history: "The Institute of Manuscripts, its collections and documents are our historical works and national treasures. We must protect them like the apple of our eye. Undoubtedly, these treasures cannot simply be stored away in archives; we must use them. However, we must do so in a way that ensures they survive for hundreds, even thousands of years, continuing to convey Azerbaijan's history to future generations."

Heydar Aliyev repeatedly emphasized in his speeches the importance of safeguarding these collections and documents, highlighting not only their preservation but also their active integration into scholarly research and academic circulation.

Minilliklərdən keçib zəmanəmizə gəlib çıxan əlyazma kitabları xalqımızın dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi ən qiymətli incilərindəndir. Azərbaycan və digər İslam Şərqi xalqlarının ən zəngin əlyazma kitabı xəzinələrindən biri Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu sayılır [ 2, s.3-4].

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu (əvvəllər Respublika Əlyazmalar Fondu) orta əsrlər Şərq yazılı abidələrinin toplanması, sistemləşdirilməsi, mühafizəsi və nəşri üzrə vahid bir mərkəz kimi 1950-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunun Əlyazmalar şöbəsi əsasında yaradılmışdır. Əlyazmaların respublikamızda toplanması tarixinə qiyabi surətdə diqqət yetirsək, bu işə hələ XX əsrin əvvəllərindən, sovet hakimiyyətinin ilk illərindən başlandığını görərik. 1924-cü ilin 21-24 sentyabrında Bakıda keçirilən Birinci Ümumazərbaycan diyarşünaslar qurultayında mədəni quruculuqla əlaqədar başqa məsələlərlə yanaşı Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti nəzdində xüsusi əski çap kitabları və əlyazmalar şöbəsi olan elmi kitabxana təşkili məsələsinə də baxılmışdır. Həmin qurultayda Azərbaycan əlyazmalarını və qədim çap kitablarını əhalidən alaraq xüsusi bir kitabxanada toplamaq haqqında qətnamə qəbul edilmişdir. Beş ildən sonra 1929-cu ildən isə bu işə başlanmışdır.

İlk olaraq buraya Azərbaycanın kitabxanalarında və ev muzeylərində saxlanılan XIX əsr Azərbaycan mədəniyyət xadimlərindən A. Bakıxanov, M.F.Axundov, Seyid Əzim Şirvani, Bəhmən Mirzə Qacar, Hüseyn Əfəndi Qacar, Mir Möhsün Nəvvab və b. şəxsi materialları toplanmışdır. Sonralar getdikcə əlyazma kitabları və tarixi sənədlərlə zənginləşdirilmişdir. Bu kitabxana isə 40-cı illərdə Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində, Azərbaycan EA Rəyasət Heyətinin nəzdində (Şərq əlyazma sektoru kimi) və Nizami adına Azərbaycan Ədəbiyyatı Tarixi Muzeyində yerləşmişdir [4, s.6].

Sonralar Azərbaycan əlyazmalarının və qədim çap kitablarının müxtəlif ali təhsil müəssisələrində, kitabxana və muzeylərdə toplandığını görən Akademiya rəhbərliyi onların bir mərkəzdə cəmləşdirilməsi təklifini irəli sürmüşdür. 1950-ci ildə isə materialların sayının artdığını, onların saxlanması üçün xüsusi mühafizə və iqlim rejiminin vacibliyini görən Azərbaycan Elmlər Akademiyası təşəbbüs qaldırmış və Respublika Əlyazmalar Fondu yaradılmışdır [4, s.10-22]

Əlyazmalar İnstitutunun son onilliklərdə müasir elmi-tədqiqat mərkəzi kimi təşəkkülü Ümummilli liderimiz, Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Hələ 1981-ci ildə Heydər Əliyevin rəhbərlik etdiyi partiya və hökumətin o vaxtkı Respublika Əlyazmalar Fondunun fəaliyyətinin daha da yaxşılaşdırılması haqqında xüsusi Qərarı ilə müəssisənin bazası möhkəmləndirilmiş, maddi-texniki təchizatı yüksəldilmiş, 1982-ci ildən isə Bakının indiki İstiqlaliyyət küçəsindəki ən gözəl binalarından birində yerləşdirilmişdir. Məlum olduğu kimi, bu bina 1901-ci ildə Hacı Zeynalabdin Tağıyevin vəsaiti hesabına qızlar seminariyası kimi tikilmişdir. Sonrakı illərdə burada Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti, məktəb, Azərbaycan SSRİ Ali Soveti fəaliyyət göstərmişdir. Ali Sovet yeni binaya köçərkən bir neçə təşkilat bu binaya köçmək üçün təşəbbüslər göstərmişdi. "Mən uzun bir fasilədən sonra bu binaya ayaq qoydum. Keçmişdə 1970-1980-ci illərdə mən Azərbaycanda işləyəndə bu

binaya çox gəlmişəm, çünki onda burada Azərbaycanın Ali Soveti yerləşirdi. Gəlib burada iclaslarda iştirak edirdim və hər dəfə bu salonda Azərbaycanın görkəmli şəxsiyyətlərinə, mədəniyyət, elm nümayəndələrinə yüksək dövlət mükafatları təqdim edirdim. İndi onlardan çoxları yoxdur" deyə xatirələrini bölüşən Heydər Əliyev Azərbaycan Ali Soveti üçün yeni bina tikildiyini və həmin o binada da müstəqil Azərbaycanın Milli Məclisinin yerləşməsini qeyd etmişdi. Azərbaycanın tarixi memarlıq abidələrindən olan bu bina sonralar Respublika Əlyazmalar Fonduna verilmişdir. "Çünki belə binalar Azərbaycanın milli sərvətidir. İndi burada iştirak edənlərin bəziləri xatırlayır, təəssüflər olsun ki, uzun illər, on illiklərlə bizim Əlyazmalar Fondu, yəni tarixi əlyazmaları, Azərbaycan tarixini əks etdirən kitablar, sənədlər Elmlər Akademiyası binasının birinci mərtəbəsində yerləşirdi. Onların bir çoxu orada xarab olurdu. Ona görə belə bir qərar qəbul etdik və mən çox məmnunam ki, bu qərarın qəbul olunması indi özünü tam doğruldubdur. Indi Əlyazmalar Fondu artıq elmi-tədqiqat institutuna çevrilibdir. Burada dediyim kimi, Azərbaycanın tarixini əks etdirən çox nadir, çox qiymətli kitablar var. Onların da çoxu Azərbaycanın tarixi abidələridir"[5, s.8-9].

Əlyazmalar İnstitutunun kimin adını daşıması da mübahisəli məsələ olaraq qalırdı. 1996-cı ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının sərəncamı ilə instituta dahi Azərbaycan şair və mütəfəkkiri Məhəmməd Füzulinin adı verilmişdir.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşları, bütün ölkə ziyalıları Ümummilli liderimiz, Ulu öndər Heydər Əlirza oğlu Əliyevin müəssisənin tarixindəki rolunu heç vaxt unutmur, həmişə onu Azərbaycan elminin və mədəniyyətinin böyük hamisi kimi yad edir.

Əlyazmalar İnstitutu orta əsr elmlərinin bütün sahələrini-tibb və astronomiya, riyaziyyat və mineralogiya, poetika və fəlsəfə, teologiya və hüquqşünaslıq, qrammatika, tarix və coğrafiya, bədii nəsr və poeziyaya aid Azərbaycan, türk, ərəb, fars və başqa dillərdə zəngin və nadir əlyazma kolleksiyasına malikdir. İndi Əlyazmalar İnstitutunda 40 mindən artıq material vardır. Bunlardan 12 minə qədəri ərəb qrafikalı əlyazmalarıdır ki, IX-XX əsrlərdə yazılmış və ya üzü köçürülmüşdür. Bundan başqa, institutda XIX-XX əsrdə yaşamış Azərbaycanın görkəmli elm və ədəbiyyat xadimlərinin şəxsi sənədləri, tarixi sənədlər və fraqmentlər, əski çap kitabları, əvvəlki dövrlərin qəzet və jurnalları, mikrofilm və fotosurətlər mühafizə edilməkdədir.

Bu gün Əlyazmalar İnstitutunun yaradılmasından yetmiş beş il ötür. Alimlərimizin milli mədəniyyət və elm tarixlərini sanballı mənbələr əsasında öyrənməsi üçün bu institutun işləyib hazırladığı və nəşr etdirdiyi kitabların qiyməti əvəzsizdir. "Kitabi-Dədə Qorqud"un mətni, Xaqani Şirvani, Şeyx Mahmud Şəbüstəri, Seyid İmadəddin Nəsimi, Kişvəri, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Abbasqulu ağa Bakıxanov, Xurşidbanu Natəvan, Heyran xanım, Fatma xanım Kəminə, Lütfəli bəy Azər, Mirzə Həsən Qarabaği və b. kimi bir sıra klassiklərin irsi öyrənilmiş və Əlyazmalar İnstitutunun əməkdaşları tərəfindən hazırlanaraq alim və tədqiqatçılara çatdırılmışdır. Tədqiqat işlərilə yanaşı İnstitutda saxlanılan çox qiymətli əlyamaların (ərəb, fars, türk dilli əlyazmaların) kataloqu hazırlanmışdır. Bu isə abidələr haqqında daha dolğun məlumat əldə etməyə imkan verir.

Son dövrlərdə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xarici ölkə kitabxanaları ilə əlaqələri genişlənmiş, surətlərini əldə etdiyimiz yazılı abidələrimizin sayı artmışdır. Xarici ölkə kitabxanalarından əldə edilmiş əlyazma surətləri tariximizi, mədəniyyət, elm və ədəbiyyat tariximizi yeni gözlə nəzərdən keçirməyə imkan verir. Bu işdə bizə kömək edən xarici ölkələrdə yaşayan həmvətənlərimizin xarici səfirliklərimizin, Heydər Əliyev Fondunun yardımı böyük əhəmiyyətə malikdir [3].

Bünövrəsi Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş və İlham Əliyev tərəfindən uğurla davam etdirilən müstəqil, çağdaş Azərbaycan Respublikası inkişaf etdikcə milli-mənəvi dəyərlərimizə, tarixi keçmişimizə, yazılı abidələrimizə, onların tədqiqi, nəşri və təbliğinə diqqətin getgedə artması danılmaz faktdır. İnanırıq ki, vaxt gələcək, dünya kitabxanalarında tariximizə, mədəniyyət, elm və ədəbiyyat tariximizə dair bütün əlyazmaların surətləri, elektron variantları əlyazmaların

vahid dövlət qorunma mərkəzi kimi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda toplanacaqdır.

**Ədəbiyyat**


1. *Adilov, M M.* Azərbaycan paleoqrafiyası /M. Adilov. – Bakı: Elm və Təhsil, 2010. – 224 s.
2. *Əliyev, H.Ə.* Müstəqilliyimiz əbədidir: [46 cilddə] /H. Əliyev. – Bakı: Azərnəşr, – c. 7. 1998. – 520 s.
3. *Kərimli, T. H.* Heydər Əliyev və klassik irs /T. Kərimli, – Bakı: Elm və Təhsil, – 2023. – 188 s.
4. Orta əsr əlyazmaları və Azərbaycan tarixi problemləri. VII Respublika elmi-nəzəri konfransının materialları “Örnək” nəşriyyatı. Bakı: Örnək, 2000. – 316 s.
5. Yazdım ki, izim qala... / AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu; tərt. N.X Babaxanova. - Bakı, 2017 .-132 s.